

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 142 (21.043)

26 iyul 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 25-də Maliyyə Nazirliyinin yeni inşa edilən inzibati binası ilə tanış olub.

Maliyyə naziri Samir Şərifov Prezident İlham Əliyevə yeni inzibati binada yaradılan şəraitlə bağlı məlumat verdi.

Qeyd edildi ki, binada nazirliyin mərkəzi aparatı, qurumun strukturuna daxil olan 2 dövlət agentliyi və 3 dövlət xidmətinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Yeni binanın ərazisində əsaslı yaşıllaşdırma və abadlıq işləri aparılıb.

Dövlət başçısı iclas zalları, görüş və iş otaqları ilə də tanış oldu.

Sonra Prezident İlham Əliyevə büdcə təşkilatları üçün maliyyə uçotu və xəzinədarlığın informasiya idarəetmə sistemləri təqdim olundu. Qeyd edildi ki, nazirlikdə büdcə təşkilatları üçün maliyyə uçotu üzrə vahid avtomatlaşdırılmış sistem, dövlət büdcəsinə daxil olan vəsaitlərin, bütün dövlət xərclərinin, xəzinə hesablarının bir mərkəzdən elektron və operativ şəkildə idarə olunmasını, faktiki xərclərə nəzarəti təmin edən Xəzinədarlığın İdarəedilməsinin İnformasiya Sistemi yaradılıb.

Dövlət başçısına ən müasir texnologiyanın tətbiq olunduğu əyar nəzarət maşını barədə də məlumat verildi.

Maliyyə Nazirliyinin yeni inzibati binası ilə tanış olan Prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.

## Dövlət Statistika Komitəsində kollegiya iclası keçirilib

İyulun 25-də Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində bu ilin ilk altı ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. İclası komitənin sədri Bəxtiyar İsmayılov açaraq məruzə ilə çıxış edib.

Bildirilib ki, ötən dövr ərzində statistik vahidlərinin dövlət reyestrində qeydiyyatda olan təsərrüfat subyektlərinin göstəricilərinin aktuallaşması prosesi görülmüş tədbirlər nəticəsində nəzərdə tutulmuş vaxtda başa çatdırılıb. Statistik vahidlərinin dövlət reyestrində qeydiyyatda olan bütün müəssisələrlə əlaqə yaradılıb, müvafiq göstəricilər dəqiqləşdirilib. Bu dövr ərzində hesabat intizamına cəlb olunmayan hüquqi şəxs qalmayıb.

Komitə sədrinin sözlərinə görə, ötən dövr ərzində şəhər və rayon statistika idarələri ilə birlikdə 7957 təsərrüfat subyektindən 22 min 242 ədəd hesabat yığılıb ki, bunun da 22 min 208-i və ya 99,8 faizi onlayn rejimdə daxil olub.

İlk altı ay ərzində komitə aparatının aidiyyəti şöbələri tərəfindən komitənin internet saytında müvafiq göstəricilər yerləşdirilib deyən komitə sədri əlavə edib ki, internet saytında aylıq makroiqtisadi göstəricilərin, təhlil materiallarının və muxtar respublikada istifadəyə verilmiş obyektlərin fotoşəkillərinin yerləşdirilməsi işləri mütəmadi olaraq aparılmaqdadır.

Vurğulanıb ki, iqtisadi fəaliyyətin bütün sahələri üzrə təhlil materialları hazırlanaraq rəhbər orqanlara təqdim olunub, sosial-iqtisadi və demoqrafik proseslər davamlı qaydada izlənilib.

Ötən dövr ərzində kütləvi informasiya vasitələri ilə də sıx əlaqə saxlanılıb, muxtar respublikanın sosial-iqtisadi vəziyyətini əks etdirən kompleks materiallar dərc edilib.

Komitədə kadr hazırlığını daha da təkmilləşdirmək məqsədilə müxtəlif vaxtlarda keçirilən treninqlərdə müvafiq şöbələrin əməkdaşlarının iştirakı təmin edilib.

Sonra məruzə ətrafında komitənin sədr müavini Müşfiq Əliyevin və Ümumi şöbənin müdiri Taleh İbişovun çıxışları olub.

Kollegiya iclasına yekun vuran Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Bəxtiyar İsmayılov bu ilin ötən dövrü ərzində işdə buraxılan nöqsanlardan da bəhs edib, bu nöqsanların aradan qaldırılması üçün lazımi tədbirlərin görülməsinin vacibliyini vurğulayaraq bu istiqamətdə ciddi iş aparılacağını bildirib.

## Muxtar respublikanın sənaye potensialı artır

2014-cü il ölkəmizdə "Sənaye ili" elan olunub. Milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Muxtar respublikada sənayenin müxtəlif sahələrinin inkişaf etdirilməsinə yönəlmiş kompleks tədbirlər bu sahədə müsbət nəticələrin əldə edilməsinə səbəb olub. Belə ki, cari ilin ilk yarımilində muxtar respublikada 471 milyon 580 min manat həcmində sənaye məhsulu istehsal edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Sənaye məhsulu istehsalının 95,8 faizi malların, 4,2 faizi isə xidmətlərin payına düşüb. Dövlət sektorunda 32669 min manatlıq, qeyri-dövlət sektorunda isə 438911 min manatlıq sənaye məhsulu istehsal edilib. İstehsal olunan sənaye məhsullarının 93,1 faizi özəl sektorun payına düşüb.

Sənaye sahəsinin inkişaf etdirilməsi istiqamətlərindən biri də sahibkarların güzəştli kreditlərə olan ehtiyacının ödənilməsidir. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2014-cü ilin ilk 6 ayında sənayenin inkişafı üçün bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2 milyon 233 min 800 manat həcmində kredit verilib. Bu, bir il öncəki müvafiq göstəricidən 2,3 dəfə çoxdur. Bəhs edilən dövrdə muxtar respublikada dövlət dəstəyi ilə 22 layihə üzrə istehsal və xidmət obyektləri istifadəyə verilib.

Sənayedə istehsalın genişlənməsi ixracın da həcminə müsbət təsir göstərib və nəticədə, ilk yarımildə daxili tələbatdan artıq istehsal olunmuş 138 milyon 670 min Amerika Birləşmiş Ştatları dolları dəyərində sənaye məhsulu ixrac edilib.

*Neçə illərdir ki, həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq tədbirləri hesabına regionumuzun ən ucqar dağ və sərhəd kəndləri də müasir yaşayış məntəqəsinə çevrilməkdədir. Bağlar diyarı Ordubad rayonunda da belə tədbirlərin həcmi getdikcə artır.*

## Ordubadın quruculuq xəritəsində yeni ünvanlar

Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan bölgədə elə bir yaşayış məntəqəsi tapmaq olmaz ki, orada quruculuq nəfəsi duyulmasın. Onu da xüsusi vurğulamaq lazımdır ki, rayonun relyefi mürəkkəbdir. Bu amil burada aparılan quruculuq işlərində çalışanları müəyyən çətinliklər qarşısında qoysa da, qurub-yaratmaq əzmi həmin çətinliklərə qalib gəlir. Görülən işlər isə, təbii ki, mövcud problemləri həll etməklə yanaşı, insanların məşğulluğunun təmin edilməsinə də müsbət təsirini göstərir, onların qurub-yaratmaq əzmini daha da artırır. Əvvəlki illərdə olduğu kimi, cari ildə də rayonda bir neçə ünvanda quruculuq tədbirləri davam etdirilir. Məlumat üçün bildirək ki, 2014-cü ilin ilk 6 ayı ərzində iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 28 milyon manatdan çox və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 1,9 faiz artaraq 26 milyon 324 min 700 manat təşkil edib.

Ordubad Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, ötən müddətdə Ordubad şəhərində Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Ordubad Rayon Şöbəsinin inzibati binasının, Yuxarı Əylis kəndində yeni məscid binasının tikintisi başa çatdırılıb. Akademik Yusif Məmmədəliyevin ev-muzeyi və Ordubad şəhərində 48 mənzilli ictimai yaşayış binası təmirdən sonra istifadəyə verilib. Ordubad şəhərinin mərkəzindən keçən Dübəndi çayında sahilbərkitmə və yaxınlıqdakı parkda aparılan abadlıq işləri başa çatdırılıb. Ordubad dəmiryol vağzalının yeni binasının, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad Yol Sahəsi və rayon Vergilər Şöbəsi, Ordubad Rayon Suvarma Sistemləri İdarəsi üçün inzibati binaların tikintisi, Ordubad şəhərindəki Buxxana tarixi memarlıq abidəsinin bərpası, Ordubad şəhərinin Mirzə Fətəli Axundov küçəsindəki 36 mənzilli ictimai yaşayış binasının təmiri davam etdirilir.

Güclü maarifçilik ənənələri olan Ordubad şəhər 3 nömrəli tam orta məktəbi üçün yeni binanın inşasına başlanılması həm məktəbin pedaqoji kollektivinin, həm də valideynlərin böyük sevincinə səbəb olub. 774 şagird yerlik məktəb binasının tikintisi "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır. Bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq. Yeni məktəb binasında laboratoriyalar, hərbi kabinə, 48 sinif otağı, 4 elektron lövhəli sinif, 4 kompüter sinfi, 165 kvadratmetr sahəsi olan idman zalı, 2 müəllimlər otağı, 2 bufet müəllim və şagirdlərin ixtiyarına veriləcək. Hazırda rayonda daha bir yeni məktəb binası Aşağı Əylis kəndində tikilir. Bu obyektlərin tikintisi başa çatdıqdan sonra bölgədə yeni bina ilə təchiz olunan təhsil ocaqlarının sayı 23-ə çatacaq.

Məlumat üçün bildirək ki, Aşağı Əylis kənd tam orta məktəbinin yeni binası 234 şagird yerlikdir. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan binada hörgü işləri əsasən başa çatdırılıb. Hazırda suvaq işləri aparılır, digər tikinti tədbirləri həyata keçirilir.

Rayonda aparılan quruculuq tədbirləri məktəb tikintiləri ilə məhdudlaşmır. Ələ adıçəkilən yaşayış məntəqəsində 2 mərtəbədən ibarət kənd mərkəzinin inşa olunması kənd sakinlərinə, Aşağı Əylisdə fəaliyyət göstərən qurumlara dövlət qayğısının daha bir ifadəsidir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları kəndə xüsusi yaraşıq verəcək hər iki obyektin tikintisində fəallıq göstərir, gördükləri işin keyfiyyətinə ciddi diqqət yetirirlər.

**Xəbərlər şöbəsi**

## Əməyin mühafizəsi daim diqqət mərkəzindədir

*Cari il fevral ayının 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı keçirilən müşavirədə əməyin mühafizəsi və sağlam təhlükəsiz iş yerlərinin yaradılması məqsədilə müvafiq orqanlara tapşırıqlar verilib.*

Verilmiş tapşırıqların icrası ilə əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən bu ilin birinci yarımili ərzində bir sıra işlər görülüb. Belə ki, tikinti və istehsal müəssisələrində işçilərin əmək hüquqlarının qorunması məqsədilə nəzarət qaydasında 127 obyektə baxış keçirilib, 108 yeni əmək müqaviləsinin bağlanmasına, 153 halda isə əməkhaqqının real göstərilməsinə nail olunub. Əmək şəraitinin, habelə iş yerlərinin əməyin mühafizəsi qaydalarına uyğun olmasının, işəgötürənlər tərəfindən işçilərin fərdi mühafizə vasitələri və xüsusi geyimlə təmin olunmasının və həmin vasitələrdən istifadə edilməsinin vəziyyəti ilə bağlı 67 obyektdə nəzarət işi həyata keçirilib, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etmədiyindən 20 işçi tikinti sahəsindən uzaqlaşdırılıb, istehsalatda çalışan 50 işçi fərdi və kollektiv mühafizə vasitələri ilə yerində təmin edilib.

Mövcud nöqsanların aradan qaldırılması məqsədilə işəgötürənlərə icrası məcburi olan göstərişlər verilib, əmək müqaviləsinin bağlanması və əməyin mühafizəsi üzrə tələblərin pozulmasına görə 2 fiziki və 3 vəzifəli şəxsə, ümumilikdə, 5000 manat məbləğində cərimə tətbiq olunub.

Eyni zamanda 278 müəssisədə işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanması təmin edilib.

İstehsalatda baş vermiş 5 bədbəxt hadisənin təhqiqatı aparılaraq İZ formalı aktla rəsmiləşdirilib.

Tikinti sahəsində işə başlamazdan əvvəl sanitar, yanğın, ekoloji təhlükəsizliyə, həmçinin yaxınlıqdakı mühəndis və nəqliyyat kommunikasiyalarının və tikililərin təhlükəsizliyinin təmin edilməsinə, təmir-tikinti aparılan yerdə xüsusi işarələrin qoyulmasına, yüksək təhlükə mənbəyi olan mexanizm və avadanlıqların istifadədən əvvəl sınaqdan və texniki təhlükəsizlik ekspertizasından keçirilməsinə nəzarət gücləndirilib.

Müəssisələrin əməyin mühafizəsi mütəxəssislərinin peşəkarlığını artırmaq məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına riayət olunması" mövzusunda iki dəfə ixtisasartırma kursu təşkil olunub.

28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü münasibətilə istehsalat xüsusiyyətləri nəzərə alınmaqla müəssisələrdə əməyin mühafizəsi mütəxəssislərinin biliklərinin və peşəkarlıq səviyyələrinin artırılması məqsədilə seminarlar keçirilib, seminar iştirakçılarına əməyin mühafizəsinə dair bukletlər təqdim edilib.

Bununla yanaşı, işəgötürənlər tərəfindən işçilərin əməyin mühafizəsinin norma və qaydalarına əməl etmələrinə də nəzarət artırılıb. Hazırda istehsal və tikinti sahələrində iaşə, soyunub-geyinmə üçün çadır və köşklər təşkil edilir, işçilərin nahar və istirahət etmələri üçün sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlər hazırlanır, normal iş vaxtı müəyyənləşdirilir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Qədim kəndin yeni növrağı

## Quruculuq tədbirləri Dizəyə müasir çalarlar gətirir

*Dizə Şərur rayonunun qədim yaşayış məskənlərindən biridir. Bunu kəndin ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkarlanan arxeoloji abidələr də sübut edir. Qədim yaşayış məskəni olan Ovçular təpəsi bu kənddədir. Ovçular təpəsinin tarixi Son Eneolit və Erkən Tunc dövrlərini əhatə edir.*

### Barlı-bərəkətli torpaq

Dizə kəndinin ümumi sahəsi 315 hektardır. 535 təsərrüfatda birləşmiş 1740 sakinin ruzi-bərəkət mənbəyinə çevrilən torpaqdan səmərəli istifadə olunur.

Dizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Mübariz Yusifov dedi ki, kənd sakinləri hər il bol kənd təsərrüfatı məhsulları yetişdirirlər. Bunun üçün dövlət qayğısı yetərli səviyyədədir. Torpaq islahatları vaxtı dizəlilərə 158 hektar pay torpağı düşüb. Dövlət fondunda 30 hektar saxlanılıb, bələdiyyə mülkiyyətinə 124 hektar verilib, kəndin gələcək inkişafına 3 hektar ayrılıb.

Kəndin torpaq mülkiyyətçiləri əkinçiliyin daha çox gəlirli sahələrinə, o cümlədən taxılçılığa böyük maraq göstərirlər. Ötən il taxıl sahələri 120 hektar olduğu halda, bu il zəmilər 168,5 hektara çatdırılıb. Qısa vaxtda 70 hektarın taxılı biçilib, hər hektardan 30 sentner olmaqla, 210 ton məhsul tədarük olunub. Taxılçılar bütün aqrotexniki tədbirləri vaxtlı-vaxtında yerinə yetiriblər. Çəkilən zəhmətin hədər getmədiyi isə indi aydın görünür. Bu sahə ilə məşğul olan Allahverdi Bağırov, Oruc Məmmədov, Fərqi İmanov, İslam Vəliyev və başqa taxılçılar yaxşı təcrübə sahibidirlər. Qabaqcıl taxılçı Allahverdi Bağırov dövlət qayğısından razılığını bildirdi:

– Heç vaxt kəndlilərə, torpaq mülkiyyətçilərinə bugünkü qədər qayğı göstərilməyib. Dövlətimizin bu qayğısı yüksək nəticələr qazanmağa imkan verir.

Kartofçuluq da kənddə xüsusi diqqət yetirilən sahələrdəndir. “İkinci çörək”dən çörək qazanmaq istəyən torpaq mülkiyyətçiləri bu sahədən də bol məhsul götürürlər. Kartofçuluqla məşğul olan Əmir Quliyev bizimlə söhbətində bu sahənin gəlirli olduğunu bildirdi. Dedi ki, torpaq bizim gəlir mənbəyimizdir. Torpağa baş əyməyən adama kəndli demək olmaz. Əsl kənd adamı ona deyərlər ki, təsərrüfatın bütün sahələri ilə məşğul olsun. Nə qədər çox zəhmət çəkərsən, bir o qədər bəhrəsini görərsən.

Dizəlilərin iqtisadiyyatına gəlir gətirən sahələrdən biri də meyvəçilikdir. Kənddə 15,1 hektarda meyvə bağı salınıb. Hər ilin yaz və payız aylarında meyvə bağlarının genişləndirilməsi qayğısına qalınır. Kənd adamları, bağbanlar təkcə bu ilin ötən aylarında Naxçıvan və Şərur şəhərlərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına 200 tondan çox meyvə məhsulları çıxarıblar.

Dizədə təzə ət və süd məhsullarına olan tələbat da daxili imkanlar hesabına ödənilir. 555 baş qaramal, 2224 baş davar saxlanılan kənddə kifayət qədər örüş və biçənək sahələrinin olması, baytarlıq xidmətinin səviyyəsinin yaxşılaşdırılması ildən-ilə heyvanların baş sayının artırılmasına təsirini göstərir.

### Kəndin quruculuq xəritəsi

Hər kəndin öz mənzərəsi, öz gözəlliyi, onu digər yaşayış məntəqələrindən fərqləndirən xüsusiyyətləri var. Muxtar respublikamızı gəzdikcə bu fərq daha aydın görünür. İnsanların yaşam tərzi ilə bərabər, həm də kəndlərin yerləşdiyi ərazi, iqlim və sair amillər fərqli kənd tabloları yaradır. Amma kəndlərimizi birləşdirən bir xüsusiyyət var ki, bu da həmin yaşayış məntəqələrində müasir üslublu tikililər, abadlıq və hər tərəfdə gözoxşayan yaşıllıqlardır. Belə kəndlərdən biri də Dizədir.

Cari ildə bu yaşayış məntəqəsində də kompleks quruculuq işləri aparılır. Bu kənddə məktəb binası 1988-ci ildə tikilib. Son illər binanın müasir tələblərə cavab vermədiyi nəzərə alınaraq onun əsaslı təmir olunması zərurəti yaranıb. Müasirtipli layihə əsasında yenidən qurulan təhsil ocağı zirzəmi qatı ilə birlikdə 3 mərtəbədən ibarət olacaq. Qeyd edək ki, ötən tədris ilində 140 şagirdin təhsil aldığı məktəbin yeni binasının layihəsində kəndin gələcək perspektivi nəzərə alınıb. Yeni bina 198 şagird yerlik nəzərdə tutulub. İnşaatçılara hərtərəfli şərait yaradılıb. Obyekt tikinti materialları ilə vaxtlı-vaxtında təchiz olunur. Buraya kifayət qədər texnika və işçi qüvvəsi cəlb edilib. Bu isə inşaat işlərinin sürətlə və keyfiyyətlə aparılmasına imkan verib. Qısa müddət ərzində köhnə məktəb binasında bəzi yardımçı tikililər sökülüb, əvvəlki binaya daha bir korpus əlavə edilib. Artıq obyektdə tikinti işləri başa çatdırılıb, binanın dam örtüyü vurulub, elektrik, rabitə, su, istilik xətləri çəkilib, suvaq işləri yekunlaşdırılıb. İndi fasad hissədə nəzərdə tutulmuş yerlərə milli naxışlarla bəzədilmiş və cilalanmış travertin üzlüklər vurulur, mərtəbələrarası pilləkənlərə və dəhlizlərə üzlük daş döşənir, həyətdə abadlıq işləri aparılır, yaşıllıq zolaqları üçün yerlər hazırlanır, qazanxananın, elektrik avadanlıqlarının və qızdırıcıların quraşdırılmasına hazırlıq görülür. Görülən işlərin həcmi, tikintidəki işin sürəti belə qənaətə gəlməyə əsas verir ki, inşaatçılar öhdələrinə götürdükləri obyektin vaxtında təhvil verilməsinə nail olacaqlar.

Layihəyə əsasən, məktəbdə 12 sinif otağı, 2 elektron lövhəli sinif, kompüter otağı, fizika, kimya, biologiya laboratoriyaları, hərbi kabinə, idman zalı, yeməkxana, kitabxana, direktor, təşkilatçı, psixoloq və müəllimlər üçün otaqlar olacaq.

Məktəbin direktoru Cəmilə Məmmədova dedi ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan təhsil strategiyası bu gün ölkəmizdə uğurla davam etdirilir. Kəndimizdə məktəb binasının əsaslı şəkildə yenidən qurulması Azərbaycanın bugünkü inkişafının və təhsil quruculuğu istiqamətində görülən işlərin təzahürüdür. Yeri gəlmişkən xatırladım ki, keçən il XI sinfi bitirən 22 nəfər məzunumuzdan 10 nəfəri ali məktəbə, 2 nəfəri isə hərbi məktəbə daxil olmuşdu. Bu il isə təhsil ocağını 12 nəfər bitirib. Onların yarıdan çoxu ali məktəblərə sənəd verib. Sənəd verənlərin hamısının ali məktəb tələbəsi adını qazanacağına inanırıq. Keçən il ali məktəbə daxil olan məzunumuz Nərmin Mikayılzadə 682 bal toplamış və Prezident təqaüdünə layiq görülmüşdü. Builki məzunlarımızdan da yüksək nəticə gözləyirik.

Azərbaycan Respublikasının əməkdar müəllimi Rüxsarə Əliyeva bildirdi ki, kənddə təhsilin inkişafı sahəsində görülən işlər kollektivi daha səylə çalışmağa ruhlandırır. Müəllimlərimiz bundan sonra da çalışacaqlar ki, yalnız savadlı və bilikli deyil, eyni zamanda ölkəmiz üçün faydalı vətəndaşlar yetişdirsinlər. Bunun üçün, ilk növbədə, təhsilə qayğı və diqqət lazımdır. Bu da muxtar respublikamızda vardır. Məktəb binasında yaradılan şərait təhsilin səmərə və keyfiyyətini xeyli artıracaqdır.

Digər bir obyekt kənddə fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. İnşaatçılar qısa müddət ərzində 2 mərtəbədən ibarət olan, müasirtipli layihə əsasında inşa edilən binada bir çox işləri başa çatdırıblar. Mərkəzdə kəndin icra nümayəndəliyi, bələdiyyə, YAP ərazi ilk təşkilatı, klub, kitabxana, polis sahə və baytarlıq məntəqələri fəaliyyət göstərəcək. Həmçinin mərkəzdə rabitə evi də yaradılacaqdır. Burada abunəçilərə yüksək səviyyədə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet və digər elektron xidmətlər təklif olunacaqdır.

Dövlətimiz öz vətəndaşlarının sağlamlığı qayğısına qalmağı prioritet vəzifəyə çevirib. Bu məqsədlə son illər muxtar respublikamızda böyük həcmdə tikinti-quruculuq işlərinin həyata keçirilməsi, səhiyyə ocaqları üçün yeni binaların inşa edilməsi, onların müasir tibbi avadanlıqlarla təmin olunması qədirbilən naxçıvanlılar tərəfindən böyük minnətdarlıq hissləri ilə qarşılanır. Dizə kəndində də hazırda 2 mərtəbədən ibarət həkim ambulatoriyası inşa olunur. Ambulatoriyada stomatoloq, uşaq həkimi, ginekoloq üçün kabinələr, palata, doğuş, peyvənd, müayinə və manipulyasiya otaqları, aptek yerləşəcək. Bu səhiyyə müəssisəsində dünyanın aparıcı ölkələrinin istehsalı olan müasir tibbi avadanlıqların quraşdırılması nəzərdə tutulub.

Təsərrüfatda çalışan, məhsul bolluğu yaradan, daxili bazarın yerli istehsala olan tələbatını ödəmək üçün əllərindən gələni əsirgəməyən Dizənin sakinləri kənddə inşa olunan xidmət mərkəzini bu yaşayış məntəqəsinin fədakar insanlarına növbəti dövlət qayğısı kimi dəyərləndirirlər. Hazırda obyektdə son tamamlama işləri aparılır. İnşaatçılar obyektin müasir tələblərə cavab verməsi üçün yaradılan şəraitdən səmərəli istifadə edirlər.

Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları olmaqla, 2 mağaza fəaliyyət göstərəcək. Burada 5 nəfər işlə təmin olunacaqdır.

Kənd ağsaqqalı, əmək veteranı Əlisultan Cəfərovla kənd mərkəzinin yanında görüşdük. O, dizəlilərin ürək sözlərini belə ifadə etdi:

– Müstəqil dövlətimizdə həyata keçirilən bütün tədbirlər ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Heydər Əliyev siyasəti muxtar respublikamızda uğurla davam etdirilir. Bu siyasət ölkəmizi, eləcə də Naxçıvanımızı inkişaf və tərəqqiyə qovuşdurub. Bunun bariz nümunəsini artıq şəhər görkəmi almış əksər kənd yaşayış məntəqələrinin, eləcə də ətrafımızda olan Yuxarı Daşarx, Aşağı Yaycı, Mahmudkənd, Gümüşlü və sair kəndlərin timsalında görürük. İnşallah, bir-iki aya kimi Dizənin də adı yeniləşən kəndlərimizin siyahısına yazılacaqdır. Budur, müstəqilliyimizin təntənəsi, budur, Heydər Əliyev ideyalarının bəhrələri. Yaşım səksəni haqlasa da, indiyədək Dizədə bu böyüklükdə işin şahidi olmamışam. Baxanda adamın qəlbi qürur hissi ilə döyünür. Sağ olsunlar, “Muxtariyyət ili”ndə bizi çox sevindirdilər.

Daha bir kənd ağsaqqalı Mircəlal Seyidov isə dedi ki, kəndimizdə həyata keçirilən quruculuq tədbirləri insanların torpağa bağlılığını artırır, onların rahat yaşamalarına, təsərrüfat işləri ilə məşğul olmalarına şərait yaradır. Kəndimizdə sakinlər müxtəlif təsərrüfat sahələri ilə məşğul olur, bol məhsul əldə edirlər. Bütün bunlar yaradılan şəraitin və göstərilən dövlət qayğısının nəticəsində mümkün olub.

*...Səhərdir. Günəş hələ üfüqdən boylanmamış Dizədə yeni həyat başlayır. Kimi taxıl zəmilərinə, kimi kartof, tərəvəz sahələrinə tələsir, kimi də mal-heyvan sürülərini örüşə aparır. Uzaqdan taxılbiçən kombaynların, kəndin mərkəzində isə ekskavatorların, buldozerlərin, kranların, yük maşınlarının, asfaltdaşıyan texnikaların səsi eşidilir. Bu, qədim Dizə kəndinin daha xoş, abad və yaraşıqlı günlərinin, yeni növrağının sədasıdır.*

**Cəfər ƏLİYEV**

---

# “Naxçıvan bağları” əmtəə nişanı ilə satışa çıxarılan yerli tərəvəz məhsullarına tələbat artır

## Böyükdüz ərazisində yeni istixana kompleksinin tikintisi vaxtında başa çatdırılacaq

***“2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq, ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, yeni meyvə bağları salınır, istixana kompleksləri yaradılır. Tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər ötən il də uğurla davam etdirilmiş, Naxçıvan şəhərində yeni istixana kompleksi fəaliyyətə başlamışdır.***

Sahibkar Elçin Bağırovun dediyinə görə, Sahibkarlığa Kömək Fondundan 1 milyon 500 min manat güzəştli kredit ayrılmışdır. 2013-cü ilin mart ayında 10 min kvadratmetr, may ayında isə 1500 kvadratmetr sahəsi olan yeni istixana kompleksi fəaliyyətə başlamışdır. Burada Hollandiya və Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılmış, anbarlar, qazanxana, yeməkxana və işçilər üçün otaqlar yaradılmış, istixana üçün yeni kənd təsərrüfatı texnikaları alınmışdır. Ümumilikdə, yeni istixana kompleksinin tikintisinə və müasir texnoloji avadanlıqların alınmasına 2 milyon 100 min manat vəsait sərf olunmuşdur ki, bunun 600 min manatı daxili imkanlar hesabına ödənilmişdir.

İstixana kompleksində zirə, tovuz və kənd sortu olan pomidor yetişdirilmiş və sifarişə uyğun, nəfis tərtibatla bəzədilmiş 7 kiloqramlıq karton taralarda topdansatış bazalarında, 250-500 qramlıq və 1 kiloqramlıq plastik taralarda isə pərakəndə satış mağazalarında Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydə alınmış “Naxçıvan bağları” əmtəə nişanı ilə gündə 500 kiloqram pomidor satışa çıxarılmışdır. Bu, muxtar respublikamızda bu məhsula olan tələbatın az bir hissəsini ödəyir. Artan tələbatın ödənilməsi və istixana kompleksinin fəaliyyətinin genişləndirilməsi məqsədilə 2014-cü ilin yanvar ayında daha bir biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunmuşdur. Ümumi dəyəri 3 milyon 150 min manat qiymətləndirilən layihənin reallaşması üçün 2 milyon 500 min manat dövlət maliyyə dəstəyi göstərilməsi, qalan 650 min manatın isə sahibkarın daxili imkanları hesabına ödənilməsi nəzərdə tutulmuşdur. 2014-cü ilin fevral ayında Sahibkarlığa Kömək Fondundan 1 milyon 500 min manat güzəştli kredit verilmiş və layihənin icrasına başlanılmışdır. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 45 min 620 kvadratmetr torpaq sahəsi ayrılmış, ərazidə torpaq işləri görülmüş, elektrik xətti çəkilmiş, transformator yarımstansiyası qoyulmuş, “Qarabağlar” kəhrizindən 17 kilometr məsafədə plastik borularla yeraltı daimi su xətti çəkilmişdir.



Layihəyə uyğun olaraq, istixana kompleksinin ayrı-ayrı bölmələrində pomidor, xiyar, çiyələk, dibçək gül toxumları yetişdiriləcək, soyuducu anbar, yeməkxana, işçilər üçün otaqlar istifadəyə veriləcək, müasir kənd təsərrüfatı texnikaları alınacaqdır. Həmçinin bu istixana kompleksində toxumcücərtmə, şitilyetişdirmə bölməsi və turşubağlama sahəsi fəaliyyət göstərəcək ki, bu da xaricdən idxal olunan eyniadlı məhsulların qarşısını alacaq. İstixana kompleksinin gündəlik tələbatı nəzərə alınaraq 4 ədəd hər birinin tutumu 225 ton olan yerüstü qapalı hovuz tikiləcək. Bu, su xəttində hər hansı bir nasazlıq yaranarkən fasiləsiz su ilə təminatda mühüm rol oynayacaq. İstixana kompleksində avtomatik rejimdə işləyən iqlim-nəzarət sistemləri, isitmə və havalandırma avadanlıqları quraşdırılacaqdır ki, bu da temperaturun sabit saxlanmasına və havanın təmizliyinə imkan verəcək. Burada su təchizatı kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş avadanlıqlar vasitəsilə aparılacaqdır. Su təmizləyici qurğudan keçdikdən sonra torpağın tərkibi haqqında laborator analizin cavablarına uyğun ayrı-ayrı çənlərdə hazırlanmış gübrələr suya əlavə olunmaqla istixanaya ötürüləcək və suvarma damcı üsulu ilə aparılacaqdır.

İllik istehsal gücü min ton olacaq istixana kompleksinin ayrı-ayrı bölmələrində bir ay ara verməklə şitil əkiləcək ki, bu da qış aylarında daxili bazarın pomidora olan tələbatının ödənilməsinə imkan verəcək.

Tikinti-quraşdırma işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün bu sahə üzrə qabaqcıl təcrübəyə malik Türkiyənin “May Çelik” şirkəti ilə müqavilə bağlanılmış, mal-materialın alınıb gətirilməsi üçün maliyyə vəsaiti ödənilmiş və materialların vaxtında idxalına başlanılmışdır. Müqaviləyə uyğun olaraq, mart ayından konstruksiya işlərinə başlanılmışdır. Altı ay müddətində təhvil verilməsi nəzərdə tutulan istixana kompleksində artıq xaricdən idxal olunmuş paslanmayan materiallarla karkastoxuma işləri və kompleksin daxilindəki ayrı-ayrı bölmələrdə ümumi uzunluğu 26 min 600 metr olan, 80 santimetrdən 1 metrədək dərinlikdə drenaj xətləri çəkilmiş, xüsusi örtükləri olan süzgəcli borular salınıb mərkəzi xəttə birləşdirilmişdir. Bu da yay mövsümündə suvarma zamanı torpağın tərkibində olan artıq suyun axıdılmasına, şoranlaşmanın qarşısının alınmasına, qış mövsümündə isə xüsusi pompalarla drenaj xəttinə vurulan isti hava ilə şitillərin qidalanmasına əlverişli şərait yaradacaq. Türkiyənin “Alarko” şirkətindən 6 ədəd soba alınıb gətirilmişdir. Bu sobaların 3-ü təbii qazla, 3-ü isə həm təbii qaz, həm də dizel yanacağı ilə işləyəcək ki, bu da müəssisəni fasiləsiz istiliklə təmin edəcəkdir.

Cari ilin oktyabr ayında istifadəyə verilməsi nəzərdə tutulan Böyükdüz istixana kompleksi daxili bazarı yüksəkkeyfiyyətli tərəvəz məhsulları ilə təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayacaq, 30 nəfərə yaxın daimi işlə təmin ediləcək ki, bu işçilərin əksəriyyəti Böyükdüz kəndinin sakinləri olacaq.

**Kərəm HƏSƏNOV**

## Ramazan bayramı birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin rəmzidir



*İslam dininə görə, Ramazan ayı müqəddəs aydır. Onu müsəlmanlar “on bir ayın sultanı” da adlandırırlar. Bu ayda müsəlmanlar Allah və din qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. İslam dininə görə, oruc tutanlar Allahın sevgisini qazanmış olurlar. Ramazan ayı Allahı dərk etmək, ruhən təmizlənmək və Uca Yaradana yaxınlaşmaq ayıdır. Müqəddəs kitabımız “Qurani-Kərim”in nazil olunduğu Ramazan ayı insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, Uca Yaradana və ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki:* ***“Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır”.***

Ramazan bərabərlik ayıdır. Bu ay varlıdan kasıba kimi hamı Allahın bəndəsi olduğunu anlayır. Çünki iftar vaxtı gəlməyənədək suyu belə içə bilməyən insan bu vəsilə ilə Yaradanın böyüklüyünü dərk edib ona şükür edir.

Müsəlman aləminin iki böyük bayramlarından biri olan Ramazan bayramı hicrətin ikinci ilindən etibarən qeyd olunmaqdadır. Ramazan bayramı Hicri-Qəmər təqviminin doqquzuncu ayı Ramazan ayının ardından onuncu ay olan Şəvval ayının ilk üç günü boyunca qeyd olunan dini bayramdır.

Həzrəti Məhəmməd Peyğəmbər hədislərində buyurur ki, Ramazan və Qurban bayramının gecələri edilən dua, tövbə Allah-Taala tərəfindən qəbul olunar.

Ramazan bayramının məqsədlərindən biri müsəlmanların birlik şəklində və bir-birilə görüşərək bayramlaşmasıdır. Müsəlmanlar oruc ibadətlərini bitirdikdən sonra bir yerə yığılır, bayram namazı qılırlar. Bayramın başqa məqsədlərindən biri də müsəlmanların bir-birlərini ziyarət etməsi, qohum-əqrəbalarla görüşməsi, əgər arada inciklik varsa, bu incikliyin aradan qaldırılmasıdır. Bayramda kasıblar və yoxsullar da sevindirilməli, onlar da yeni paltar geyərək bütün müsəlmanlarla bir yerdə namaza gəlməlidirlər.

Bayram günləri oruc tutmaq günahdır. Bayram namazı oruc halında qılınmaz. Müsəlman bayram namazı qılmazdan qabaq mütləq yemək yeməlidir. Bayram günü bütün müsəlmanların bir-birlərini bayram münasibətilə təbrik etmələri və bir-birləri üçün dua etmələri təqdirəlayiq hesab olunur.

Ramazan bayramı maddi dünyanın deyil, mənəvi aləmin təntənəsi, coşqusudur. Bütün fəsillərin, ayların ruhunu və onlardan süzülüb gələn mənaları bizə təqdim edən Ramazan bayramını bu il də böyük sevinclə qarşılayırıq. Əlbəttə, bayram günü ən birinci valideynlərimizi təbrik etməli, qulluqlarında durmaqla onlara əsl bayram sevinci yaşatmağa çalışmalıyıq. Allah-Taala “Qurani-Kərim”də valideynlərə hörmət etməyi buyurmuşdur. Xüsusilə bayram günlərində ailə üzvlərini sevindirmək, onlara qarşı səmimi məhəbbət nümayiş etdirmək bu bayramın şərtlərindəndir.

Müqəddəs Ramazan bayramı hər il dünya müsəlmanları tərəfindən böyük təntənə ilə qeyd olunur. Bu bayram bütün İslam aləminin həmrəylik və qardaşlıq timsalına çevrilmişdir. Bayram günlərində insanlar arasında Allaha inam, Vətənə, torpağa, xalqa bağlılıq hissindən doğan bir nikbinlik əhval-ruhiyyəsi yaşanır.

Tarix boyu öz mənəvi dəyərlərini uca tutmuş Azərbaycan xalqı da dünya müsəlmanlarının mübarək Ramazan bayramını könül xoşluğu ilə qeyd edir. Bu bayram günlərində Azərbaycan xalqı respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın unudulmaz xatirəsini ehtiramla yad edir, hər yerdə şəhidlərimizin ruhuna dualar oxunur. Ramazan bayramı həmçinin insanların Vətən, torpaq, dövlətçilik kimi müqəddəs amallar ətrafında daha sıx birləşməsinə xidmət edir.

Məhz bu birlik, həmrəylik dövlətimizin daha da güclənməsini, işğal altındakı torpaqlarımızın tezliklə azad olunmasını təmin edəcəkdir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Ramazan bayramı dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır. Ulu öndərimiz xalqımıza Ramazan bayramının böyük coşqu və sevinclə qeyd olunması kimi müqəddəs bir ənənəni miras qoymuşdur. Bu ənənə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycanda din-dövlət münasibətləri çox yüksək səviyyədə inkişaf edir. Bu gün Azərbaycan dünyanın ən tolerant ölkəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ramazan bayramı münasibətilə iyulun 25-də xalqımıza ünvanladığı təbrikində deyilir: ***“Hikmətlər hikməti olan “Qurani-Kərim”in nazil olduğu Ramazan ayı bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu, düşüncəsini saflaşdıran əziz bir aydır.***

***Azərbaycanda milli və dini mərasimlər, o cümlədən Ramazan bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Bu günlər cəmiyyətimiz əsl bayram sevinci ilə yaşayır. Orucluğun sınağından könül xoşluğu və fərəhlə çıxanlar dünyanın və ölkəmizin əmin-amanlığı naminə və Vətən torpağı uğrunda canını fəda etmiş şəhidlərimizin müqəddəs ruhları üçün dualar edirlər”.***

Naxçıvan Muxtar Respublikasında da milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlarımız ən yüksək səviyyədə qeyd edilir, ziyarətgahlarımız, məscidlərimiz təmir və ya bərpa olunur. Hər il Ramazan ayının fəzilətlərinin həyata keçirilməsi, iftar süfrələrinin açılması və bu bayramın həmrəyliklə qeyd edilməsi ənənə halını almışdır. İyulun 14-də müqəddəs Ramazan ayı münasibətilə Naxçıvan şəhərində təşkil olunmuş iftar mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu ayın fəzilətləri çoxdur. Onlardan biri də ilahi düşüncə və müdriklik xəzinəsi olan müqəddəs “Qurani-Kərim”in bu ayda tamamlanmasıdır. Ramazan ayı insanlara əxlaqi saflıq, xeyirxah niyyətlər aşılayır. Bu ayın mənəvi zənginlikləri Azərbaycan xalqı tərəfindən yüksək tutulmuşdur. Ona görə ki, bizim xalqımız da daim xeyirxah niyyətlər ardınca getmiş, böyük mədəniyyət yaratmış, qədim sivilizasiyaya zəngin mənəvi dəyərlər bəxş etmişdir. Hər bir xalqın mənəvi yüksəlişi onun əsrlər boyu formalaşdırdığı milli və mənəvi dəyərlərə bağlılığı ilə ölçülür. Buna görədir ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda dini və mənəvi dəyərlərin qorunub yaşadılmasına, eləcə də İslamın müqəddəs ayin və mərasimlərinin qeyd edilməsinə xüsusi diqqət yetirilir. Oruc tutan hər bir müsəlman dinimiz qarşısında öz borcunu yerinə yetirir. Ramazan ayında tutulan oruc insanın paklığına, iman və iradəsinin saflaşmasına xidmət edir”.***

Qeyd edək ki, bayramdan öncə imkanı olan hər bir müsəlmanın fitrə verməsi vacibdir. “Fitir” oruclu olmama halını ifadə edir. Ramazan ayı boyunca oruc tutan müsəlmanlar bu ay sona çatıb Şəvval ayı girincə oruca son verirlər və bayram edirlər. Ərəbcə bu bayrama “idul-fitr” (fitir bayramı) deyildiyi kimi, həmin gün ödənməsi lazım olan sədəqəyə də “sadakatul-fitr” (fitir sədəqəsi/fitrə) və ya “zəkatul” (fitir zəkatı/fitrə zəkatı) deyilir. Fitrə zəkatının vacibliyini Məhəmməd Peyğəmbər hicrətin 2-ci ilində, Ramazan ayı bitdikdə oxuduğu xütbə zamanı buyurmuşdur.

Miqdarı etibarilə az görünən sədəqə geniş təbəqələr tərəfindən ödəndiyi təqdirdə ehtiyacların aradan qaldırılmasına böyük təsir göstərir, sevinc və xoşbəxtliyin yayılmasına səbəb olur. Fitir sədəqəsi verməyin kimlərin vəzifəsi olduğu mövzusunda fərqli görüşlər var.

Özünün və ailəsinin illik qazancını təmin edəcək, qazancı olan ağıllı, yetkin hər kəs üçün fitir sədəqəsi vermək vacibdir. Fitir sədəqəsini verən şəxs sədəqəni həm şəxsi üçün, həm də ehtiyacını təmin etməyə borclu olduğu ailə üzvləri, eləcə də Ramazanın son axşamı Günəş batmadan əvvəl evinə gələn və qonaq olaraq qəbul etdiyi kəslər üçün verməlidir. Bu şəxslərin böyük-kiçik, yaxud müsəlman və ya qeyri-müsəlman olmaları arasında bir fərq yoxdur. İlahiyyatçıların fikrincə, fitrə buğdadan və ya undan 1,5 kq, xurma, arpa və ya kişmişdən 3 kq verilər. Qeyd olunan qida məhsullarının dəyərində pul da verilə bilər ki bunun da minimal həddi adambaşına 2 manat təşkil edir. Əlbəttə, imkanı olan şəxs istəyərsə, bundan daha artıq məbləğdə pul verə bilər.

Fitrə zəkatı maddi vəziyyəti çətin olan adamlara (fəqirlərə) verilməlidir. Hər kəs öz kasıb qohumuna, ya qonşusuna fitrə zəkatı versə, daha yaxşıdır. Zəkatın hansı şəxslərə verilməsi ilə əlaqədar “Qurani-Kərim”in “Tövbə surəsi”nin 60-cı ayəsində bildirilir: *“Sədəqələr (zəkatlar) Allah tərəfindən müəyyən edilmiş bir fərz (vacib əməl) olaraq ancaq yoxsullara, (ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən) miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri (müsəlmanlığa) isinişib bağlanmaqda olanlara (iman gətirib hələ kamil mömin olmayanlara), azad ediləcək kölələrə (və ya boynuna kəffarə düşüb verə bilməyənlərə), həmçinin (borcu ödəməyə imkanı olmayan) borclulara, Allah yolunda cihad edənlərə və yolçulara (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə) məxsusdur. Allah (hər şeyi) biləndir, hikmət sahibidir”.*

Qəlbləri ilahi hikmətlə nurlandıran Ramazan bayramı insanları sülhə, əmin-amanlığa və həmrəyliyə dəvət edir, cəmiyyətimizdə nəcib əməllərin və savab işlərin təntənəsinə yol açır. Allah orucunuzu və dualarınızı qəbul eləsin! Ramazan bayramınız mübarək olsun!

**Vüqar BABAYEV**
*Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi*

*Hərb tariximizdən*

## Süvari generalı Hüseyn xan Kəngərli – Naxçıvanski

***Bəlkə də, Şərqdə Naxçıvan Kəngərlilərinin süvarilərini əvəzləyən ola bilməz. Amma təəssüflər olsun ki, hərb tariximizin zəngin xəzinəyə bənzəyən bu hissəsi hələ də tədqiq edilməmiş qalır. Qədim skiflərin hərb mədəniyyət tarixi ilə Naxçıvanın Kəngərli süvari birləşmələrinin tarixi arasında paralel müqayisələr aparmaq çox maraqlı olardı. 1920-ci ilədək Naxçıvanın Kəngərli süvariləri imperiyalar daxilində belə, özlərinin orijinal süvari məktəblərinə sadiq qalmışlar. Bu, elə də asan məsələ deyil.***



*Hüseyn xan Naxçıvanskinin saatı*



*Soldan 5-ci Hüseyn xan Naxçıvanskidir. Tiflis, 1916-cı il. Qafqaz Hərb Muzeyinin qarşısında*

Azərbaycanlı süvari dəstələri Rusiya ordusunda çox olub. Cəsarətlə deyə bilərik ki, Naxçıvanın Kəngərli süvari dəstələri təpədən-dırnağa əsl hərbçilər idilər. Biz hökmən öz hərb tariximizi dərindən araşdırmalıyıq. Çünki ötüb gedən illər yaddaşlarda qalanları da özü ilə aparır. Kəngərli süvari məktəbinin hərb tarixi ilə bərabər, özünəməxsus ənənələri də olmuşdur. Bilərəkdən və ya bilməyərəkdən itirilmiş zərrəcikləri biz tədqiqatçılar nəyin bahasına olursa-olsun, tapıb yerinə qoymalıyıq. Məsələn, indiyədək elə bilirdik ki, Kəngərli süvari döyüşçüləri atlarının başlarına qırmızı parçalar bağlayırmışlar. Rusiyalı tədqiqatçılar buna “Kapor” deyirlər. Bəs, görəsən, bizim naxçıvanlı süvari qəhrəmanlarımız hələ Rusiya işğalından əvvəl buna nə deyirmişlər? “Kapor” sözü yaylıq kimi tərcümə edilsə də, süvari döyüşçü döyüş atının başına yaylıq bağlamaz. At çox həssas heyvandır. Belə halda döyüşçünü belində saxlamaz. Ona görə də həmin qırmızı kaporun şəklini çox inadla axtarırdıq. Uzun illərin axtarışından sonra Naxçıvanda tapdıq. 1892-ci ildə çəkilmiş fotoda əks olunan Bəyazid döyüşlərində iştirak etmiş Kəngərli süvarisi Əşrəf ağa Kəngərlinin atının başındakı kapor yaylıq deyil, çox incə, orijinal, ancaq qırmızı parçadan hazırlanan döyüş ləvazimatıdır desək, yanlışlıq olmaz. Hərb tariximizin atributlarında qırmızı rəngin xüsusi yeri vardır. O rəng həm də qorxmazlıq rəmzidir. Bilərəkdən yazımızın əvvəlində bunları xatırlayırıq. Çünki haqqında söhbət açacağımız igid süvari generalı Hüseyn xan Naxçıvanski də Naxçıvanın Kəngərli süvari məktəbinin yetirməsidir.

Görkəmli sərkərdə, süvari generalı Hüseyn xan Naxçıvanski 1863-cü il iyulun 28-də Naxçıvan şəhərində anadan olmuşdur. Onun atası, Rusiya imperiyasında çox diqqətdə olan general-mayor II Kalbalı xan Naxçıvanski 1873-cü ildə 10 yaşlı oğlunu Rusiya çarına məxsus olan Paj korpusuna oxumağa göndərmişdir. 1881-ci ildə Paj korpusunu uğurla bitirən Hüseyn xan Naxçıvanski rus ordusunda hərbi xidmətə başlamışdır. Özünün intizamı, cəsurluğu və sədaqəti nəticəsində adi kornetdən süvari generalındək şərəfli bir yol keçmişdir. Rusiyanın və digər xarici ölkələrin yüksək ali hərbi mükafatlarını almışdır. Keçən il onun anadan olmasının 150 illiyi tamam oldu. Bu münasibətlə yazdığımız yazılarda onun aldığı mükafatları adbaad təqdim etmişik.

Birinci Dünya müharibəsi illərində Hüseyn xan Naxçıvanski çox müvəffəqiyyətli hərbi əməliyyatlar keçirmiş və hər dəfə düşmən tərəfini məğlubiyyətə uğratmışdır. Düşmən qoşununun gözləmədiyi yerdən hücuma keçən Hüseyn xanın Şərqi Prusiya əməliyyatı onun hərbi fəaliyyətinin ən mühüm məqamlarından biridir. Sonralar Azərbaycanın əfsanəvi qəhrəmanı, general-leytenant Əliağa Şıxlinski “Xatirələrim” adlı kitabında da bu döyüş haqqında yazmışdır: “General Xan Naxçıvanskinin komandası altında olan bizim süvarilərimiz alman süvarilərini darmadağın etmişlər”.

Hərbi alim, professor, general-mayor Yevgeni Barsukov da Hüseyn xanın uğurlu əməliyyatına yüksək qiymət vermişdir. General Hüseyn xan Birinci Dünya müharibəsində almanların hücumlarının qarşısını kəsir, onların hücumuna imkan vermirdi.

1915-ci ilin mayında Hüseyn xan yaralanır. Göstərdiyi müstəsna qəhrəmanlığa görə Rusiya çarının 1 may 1915-ci il tarixli əmri ilə ona ancaq generalların təltif olunduğu “Ağ Qartal” ordeni verilir. Həmin ilin iyun ayının 1-də general-leytenant Hüseyn xan Naxçıvanski əlahəzrətin yavəri (general adyutantı) hərbi rütbəsi ilə təltif edilir.

Ardı 4-cü səhifədə

Bütün hərbi zirvələri fəth edən Hüseyn xana göstərdiyi sədaqət və qəhrəmanlıqlara görə 23 yanvar 1916-cı ildə süvari generalı hərbi rütbəsi verilir. Qeyd edək ki, onun əmisi İsmayıl xana da 18 avqust 1908-ci ildə quru qoşunları generalı rütbəsi təqdim edilmişdir. İsmayıl xan piyada qoşunları, Hüseyn xan isə tam süvari generalları idilər. Hüseyn xan Sankt-Peterburqun və doğulduğu Naxçıvanın xeyriyyəçilik işlərində yaxından iştirak edirdi. O, Sankt-Peterburqdakı Müsəlman Xeyriyyə Cəmiyyətinin sədr müavini idi. Ata yurdu, doğma Vətəni Naxçıvana çox bağlı olmuşdur. Naxçıvanın ən zəngin adamı sayılırdı. Atasından ona miras qalmış 510 desyatın əkin sahəsi Naxçıvanın yaxınlığında yerləşən Çeşməbasar kəndində idi.

Bundan əlavə, qardaşı Cəfərqulu xanın malikanəsinin yanında özünün mülkü var idi. Naxçıvana gələndə orada qalırdı. Bu evdə hazırda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı yerləşir. Sovet hakimiyyəti illərində Naxçıvan Vilayət Komsomol Komitəsi burada fəaliyyət göstərirdi. Hüseyn xanın buradakı bağının bir hissəsi indiyədək qalır. Məqamındaca deyək ki, Naxçıvan Araz-Türk Cümhuriyyəti onun evində fəaliyyət göstərmişdir.

Hüseyn xan Naxçıvanski 1912-ci ilin yanvarında qardaşı Cəfərqulu xanla birlikdə ərizə yazaraq çar hökumətindən xahiş edirlər ki, onlara Naxçıvan qəzasında 3,5 min desyatın torpağı 65 illiyə icarəyə versinlər. Onlar Araz çayında öz pulları hesabına irriqasiya qurğuları quraraq kanal çəkəcəklərini və susuz çölləri əkəcəklərini də yazmışdılar. Əsasən, Qaraçuq və Böyükdüz torpaqlarından istifadə etmək istəyirdi Hüseyn xan Naxçıvanski. Amma 1912-ci il fevralın əvvəlində çox sevdiyi oğlu, 21 yaşlı Nikolayın müəmmalı, faciəli ölümü onun bu xeyirxah arzularını tar-mar etdi.

Oğlunun ölümündən sonra bir müddət iş yerini Riqaya dəyişməli oldu. Hərb sənətinə fitrətən bağlı olan Hüseyn xan Rusiyaya zəfər dalınca zəfər gətirdi. Bəlkə də, imperiyalar içində zirvələr fəth etməkdən çətin heç nə yoxdur. Çünki hər bir işdə ikiqat hünər göstərməlisən ki, sənə və doğulduğun torpağa diqqət yetirsinlər. Hüseyn xan Naxçıvanskinin qeyri-adi döyüş bacarığı onu Rusiyanın və dünyanın bir çox ali hərbi ordenlərinin kavaleri etdi. Ömrünün sonunadək xidmət kitabçasından "müsəlman" sözünün silinməsinə imkan vermədi. Buna görə çox uduzsa da, mənsub olduğu dinə axıradək sadiq qaldı. Birinci Dünya müharibəsi illərində Hüseyn xan tez-tez Qafqaza, o cümlədən Tiflisə də gəlirdi. Onun Sarıqamış və Qars hərbi səfərləri haqqında əvvəllər ətraflı yazmışıq. Onun Tiflisdə ən çox sevdiyi yerlərdən biri də Qafqaz Hərb Muzeyi idi. Hətta o binanın önündə Qafqaz canişini ilə birlikdə çəkdirdiyi fotoşəkli Tiflis arxivlərindən tapdıq.

Bu yaxınlarda Ukrayna qəzetlərinin birində onun üstündə yazısı olan cib saatının şəkli verilib. Döyüş vaxtı onun əsgərlərindən biri (Zabolotnıy soyadlı) şücaət göstərir. Hüseyn xan onu təbrik etmək üçün heç nə tapa bilmir. Vaxtilə çar II Nikolayın Hüseyn xana bağışladığı qiymətli cib saatını həmin əsgərə verir. Həmin əsgər o cib saatını ömrü boyu saxlayır və oğluna vəsiyyət edir ki, saatı vaxt gələr, Hüseyn xanın varislərinə, yaxud qohumlarına çatdırarsan. Oğlu bu işi yerinə yetirə bilmir, lakin nəvəsi Mikola Zabolotnıy babasının vəsiyyətinə əməl edə bilir. Rəsmi orqanların köməyi ilə saatı Bakıda yaşayan Naxçıvanskilərə çatdırır. Həmin saatın fotoşəklini bu yazıda oxucularımıza təqdim etdik.

Süvari generalı Hüseyn xan Naxçıvanski özünəməxsus döyüş qabiliyyəti olan sərkərdə idi. Naxçıvanın qranit qayaları kimi möhkəm iradə sahibi olan Hüseyn xanı bolşeviklər öz əqidəsindən döndərə bilmədilər. 1918-ci ilin mayında bolşeviklər onu Petroqradda həbs etdilər. Petropavlovsk qalasında saxladılar. Deyilənlərə görə, 1919-cu ilin yanvarında onu Petropavlovsk qalasında knyaz Romanovlarla birlikdə güllələyiblər.

Bir vaxtlar indiki Xan Sarayının otaqlarını gülüşləri ilə dolduran bacı-qardaşların taleyi çox kədərli oldu. Siyasi quruluşlar onları dünya ölkələrinə səpələdi. İki ay əvvəl onlar haqqında yazdığım yazını oxuyan bir avar gənc ziyalı AMEA-nın Naxçıvan Bölməsinə məktub yazıb müəlliflə əlaqə saxlamaq istədiyini bildirmişdi. O, sonralar məktubunda mənə yazırdı ki, general Əlixanovun həyat yoldaşı Zərrintac xanımı (Hüseyn xanın bacısı) Qoridə həbs edib uzaq Arxangelskdəki qorxulu Solovetski monastrına aparıblar. O monastrdan isə heç kim sağ çıxmırdı. Sənədlərdən məlum olur ki, dəhşətli laboratoriyalar varmış orada.

İndi onlarla bağlı hər bir sənədin, fotonun, şəxsi əşyanın aşkara çıxarılmasını istəyən, onların doğulduqları, yaşadıqları sarayı xalqın ziyarət yerinə çevirən şəxsiyyətlər var. Sadəcə, qalır ki, Xan Naxçıvanskilərin dünyanın ölkələrinə səpələnmiş varisləri bu saraya – I Kalbalı xanın sarayına gətirilsinlər, hər şeyi öz gözləri ilə görsünlər. Onda onlar da rahatlıq tapar, ruhları narahat olan babaları da.

**Musa QULİYEV**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

# Naxçıvan şəhərində Əyləncə və İstirahət Mərkəzi



















## Xalq teatrlarının muxtar respublika festivalı davam edir

*Xəbər verdiyimiz kimi, iyulun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamına uyğun olaraq, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında xalq teatrlarının muxtar respublika festivalına başlanılmışdır. Dünən Şahbuz Rayon Xalq Teatrı festivalda Zülfüqar Hacıbəyovun "Evliykən subay" pyesi əsasında hazırlanmış üçpərdəli səhnə əsərini teatrsevərlərə təqdim etmişdir.*

Məlumat üçün bildirək ki, Şahbuz Rayon Xalq Teatrı 2011-ci ildən fəaliyyət göstərir.

"Evliykən subay" tamaşasında



ötən əsrin əvvəllərində ailə-məişət münasibətlərində mövcud olan ziddiyyətlər, eybəcərliklər gülüş hədəfinə çevrilmişdir. Əsərin əsas konflikti Kəlbə Hacı və onun arvadları Pərzadla Hürzad üzərində qurulmuşdur. Komediyanın əsas gülüş və tənqid hədəfi Kəlbə Hacıdır. İki arvad arasında qalan, tamaşanın finalına qədər gülüşdoğuran bu obrazı Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi Çingiz Haqverdiyev uğurla təqdim etmişdir.

Tamaşada Kəlbə Hacı obrazının eybəcərliklərini arvadları Pərzad (İlahə Səfiyeva) və Hürzad (Xurşud Quliyeva) ifşa edirlər. Bu, tamaşada gülüşdoğuran əsas məqamlardandır. Öz talеləri ilə barışmayan hər iki qadın ikinci pərdədə Kəlbə Hacını evdən çıxarır. Ortalıqda qalan Kəlbə Hacı Üzeyir Hacıbəylinin Məşədi İbad obrazını xatırladır. Kəlbə Hacının küçədə üz tutduğu tiplər də gülüş doğurur. Qospodin (Gündüz Kəlbəli), Molla Səfi (İsa Qələndərov), Əmioğlu (Nihad Hüseynov), paltarsatan (Şahin Orucov) kimi tiplər dövrün koloritini səhnəyə gətirmək baxımından canlı və təbiidirlər. Qaraçılar obrazını canlandıran aktyorlar Tahirə Hacıyeva, Zərifə Qələndərova, Fazilə Məmmədova, İlkanə Əliyeva, Taleh Səfiyev tamaşaya şən və xoş ovqat qatırlar.

Tamaşanın quruluşçu rejissoru Ramiz Cəlilov, rəssamı Səxavət Paşayevdir. Murad Hacıyev və Emin Hüseynovun ifa etdikləri musiqilər tamaşanın təsirli təqdimatını səciyyələndirən amillərdəndir.

Ümumiyyətlə, Şahbuz Rayon Xalq Teatrının ifasında Zülfüqar Hacıbəyovun "Evliykən subay" musiqili komediyası tamaşaçılara xoş təsir bağışlayır. Bu xalq teatrının yarandığı gündən musiqili komediyaların səhnələşdirilməsinə daha çox meyil etməsi diqqəti cəlb edir.

**Əli RZAYEV**

*İtmişdir*

Naxçıvan şəhəri, "Əlincə" məhəlləsi, bina 20, mənzil 31-də yaşayan Qənbərova Nəzakət Yunis qızının adına olan 7062 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Adil Talıbov, Yaqub Məmmədov, Əlövsət Allahverdiyev və Nizami Alıyev, yaxın dostları
**İMRAN HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 644